

# ŞAİR ÖMRÜNÜN 85 ZİRVƏSİ

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Nəriman Həsənzadə GÖZƏL İNSANDIR! Onu 85 yaşında da ruhən cavan saxlayan elə bu insanlığıdır. Elə bu insani xüsusiyyətlər onun şeirlərində də öz əksini tapır. Nəriman Həsənzadə öz şeirlərinə, şeirləri də ona oxşayır. Mən onun üzündə həmişə xoş bir təbəssüm görmüşəm. Vallah, inanmağım gəlmir ki, Nəriman Həsənzadə kiminsə paxıllığını çəkə, kiməsə badalaq vura, öz şəxsi mənafeyi və istəkləri üçün məkrli yollardan keçib istəyinə nail ola. Təbii ki, onun da bu dünyada xoşlamadığı insanlar, xasiyyətlər, hadisələr ola bilər, lap elə dostları olduğu kimi, düşmənləri də ola bilər, amma yenə inanmağım gəlmir ki, kimsə Nəriman Həsənzadəni özünə əbədi düşmən hesab eləsin.**

*Şeir yazdığım gün məğrur oluram,*
*ilham ki, xəfifcə sinəmə dolur;*
*bir şeh damlası tək büllur oluram,*
*dünya dünyada yox, məndə əks olur.*

Nəriman Həsənzadə mənim fikrimcə, müasir Azərbaycanın ən xoşbəxt şairlərindəndir. O, yaradıcılığının "məşq" dövrünü - əllinci illəri arxada qoyandan sonra, altmışıncı illərdə artıq istedadlı bir şair kimi ədəbi aləmdə etiraf edildi. Nəriman Həsənzadə ömrü boyu onu duyan, sevən insanların əhatəsində olub. Belə insanlardan biri də Azərbaycanın görkəmli yazıçısı və ədəbiyyatşünası Mir Cəlal Paşayev olub. Mir Cəlal müəllim Nərimanın "Könlüm şeir istəyir" kitabına yazdığı ön sözdə öz ürək sözlərini belə ifadə etmişdi: "Nəriman olduqca həssas bir şairdir. O, bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və məna dolu həyatımızı görmək istəyir.

Nərimanın şeirləri danışıq dilinə yaxın, sadə, səlis üslubu ilə də seçilir. Adama elə gəlir ki, bunlar yazılmır, söylənir. Kitabdan, rəsmiyyətdən uzaq, ürəkdən gələn şirin, maraqlı bir söhbətdir. Əlbət ki, bu yalnız şeirlərin şəkli xüsusiyyəti ilə yox, həm də məzmunu ilə bağlıdır. Nəriman oxucusunu çoxdanın dostu, tanışı və ürək sirdaşı kimi dindirir".

Mir Cəlal müəllimin bu mülahizələrinin söylənildiyi vaxtdan az qala əll beş il keçir. Amma elə bil, indi deyilib. Və qeyd edim ki, istər müasirləri olan görkəmli tənqidçi və ədəbiyyatşünaslar, istər qələm dostları, istərsə də sonrakı ədəbi nəsillərin nümayəndələri Nəriman Həsənzadə yaradıcılığını çox yüksək qiymətləndiriblər. Böyük ədibimiz Mirzə İbrahimov yazırdı: "Nərimanın şeirlərini oxuduqca biz belə qənaətə gəlirik ki, sənət əsəri, xüsusən lirik şeir o zaman adamı əfsunlayır ki, həyat, təbiət və insanlar haqqında, onların bitməz-tükənməz işığı, qaranlığı, gözəlliyi, eybəcərliyi, sevinc və faciələri barədə oxucuya nə isə yeni bir şey deyir, onu bu vaxta qədər bilmədiyi, duymadığı, xəyalına da gətirmədiyi qəribə hisslərlə, duyğularla tanış edir, dərin fəlsəfi mənalar və füsunkar gözəlliklər aləminə aparır, fikrini, düşüncəsini bu aləmin sirlərini dərk etməyə yönəldir". N.Həsənzadə bu mənada ədəbi tənqidin sevə-sevə müraciət etdiyi, üz tutduğu ədəbi şəxsiyyətlərdən biridir. Şəxsən mən də bir tənqidçi kimi onun poeziyasından bir neçə məqalə yazmışam, çalışmışam ki, şairin ruhunu tuta bilim.

Gəlin, bir anlığa təsəvvür edək ki, bizim son altmış beş illik poeziya, dramaturgiya və publisistikamızda Nəriman Həsənzadə adlı bir müəllifimiz olmayıb. Onda bu altmış beş illik ədəbi prosesimizdə bir boşluq, bir çat yaranmış olardı. Lirikamızda Nəriman Həsənzadə zərifliyi, incəliyi, epik poeziyamızda Nəriman Həsənzadə dəst-xətti görünməzdi. Şeirimizdə elə nümunələr var ki, onları məhz Nəriman Həsənzadə yaradıb, onlarsız poeziyamızı təsəvvürə gətirmək qeyri-mümkün olardı. Oxucularla açıq və səmimi danışmaq ədası, onların ürəyinə, hiss və duyğularına yol tapmaq bacarığı, təbiilik və səmimiyyət bütün bunlar Nəriman Həsənzadə poeziyasını elə ilk baxışda təyin edən xüsusiyyətlərdir. Nə yaxşı, şeirimizin Nərimanı var, - deyirik.

"Şeir mənim aləmimdə bütöv bir kainatdır, müxtəlif səslərilə, rənglərilə birlikdə təbiətin özüdür, əslidir, surəti deyil. O da canlı orqanizmdir, təbiət qədər doğma və amansızdır. Mən indiyə qədər nə çəkmişəmsə, şeirdən çəkmişəm. Onun ağırlığı altında təntimişəm, amma həmişə bu, mənə fərəh verib. Ağrılardan doğan sevincim olub. Mən bu əzabı həyatda bəlkə də heç bir əyləncəyə dəyişmərəm. Axı, bir də bu məndən asılı olan şey deyil. Mənim səadətim də bundadır".

Bu, Nəriman Həsənzadənin şairlik kredosudur. O, bütün yaradıcılığı boyu bu amala daim sadiq qalıb, şeirdən, poeziyadan, öz təmiz hiss və duyğularından heç vaxt üz döndərməyib.

Mən Nəriman müəllimin poetik yaradıcılığını xarakterizə etsəm, bircə sözün üzərində dayanaram: SEVGİ... Bu sevgin mənbəyi Anadan başlanır, sonra həyatı yarıda qırılmış bir gözəl qadına məhəbbətlə davam edir, get-gedə bu sevginin sərhədləri böyüyür, bir ürəyə sığmır, böyük Azərbaycan sevgisinə çevrilir. ANA, SEVGİLİ, VƏTƏN məhəbbəti DÜNYAYA, KAİNATA sevgiylə qovuşur.

Budur, şair anasının məzarını ziyarətə gəlib:

*Bu gülün rəngində vardı bir donun,*
*Həyatı sevirdin, axı sən, ana.*
*Nə deyim, bəlkə də geyinib onu*
*Təzədən dünyaya gəlmisən ana.*

Bu şeiri Azərbaycan poeziyasında ana haqqında yazılmış ən gözəl nümunələrdən biri hesab edirəm. Ana məzarı, üstündə bitən bir gül. Nə qədər uğurlu bir bənzətmədir.

Səksəninci illərin sonlarında Nəriman müəllimin həyat yoldaşı - Sara xanım dünyasını dəyişdi. Cavan Nəriman vaxtilə gələcək həyat yoldaşına gözəl sevgi şeirləri həsr eləmişdi, bu şeirlər hicran qəmindən, kədərindən uzaq şeirlərdi. Amma Sara xanım vaxtsız getdi dünyadan və Nəriman müəllimin sevgi şeirlərinin də ahəngi dəyişdi. Qəm, kədər öz yerində, amma bu sevgi şeirlərinə doğrudan da bir hicran, əbədi ayrılıq duyğuları yol tapdı. İnsan ən əziz adamını itirəndə



ya başına hava gəlir, ya da filosofa çevrilir. Ailə-qadın-cəmiyyət problemi, tənhalıq, təkliyin gətirdiyi faciə bütün bunlar onun bir çox şeirlərinin leytmotivinə çevrildi.

*Mən kimin yanına qayıdım evə,*
*bir eyvan, dörd divar, çoxlu daş qalıb.*
*Sənlə dolu idi boş evim əvvəl*
*indi dolu evim sənsiz boş qalıb.*

*Dünyada ən böyük itki qadındı,*
*gördüm anamda da, qadınımda da.*
*Evin yiyəsiydin, indisə torpaq,*
*sənsən sağ canımda ağrıyan yerim.*
*Çöldə qalmaq olmur,*
*evdə yaşamaq,*
*nə gedən yerim var,*
*nə qalan yerim.*

*Evdən, ailədən başlanır Vətən,*
*qadından başlayır.*

*Qadınsız kişiyə ər deyən olmaz,*
*Qadındır kişinin ər ləyaqəti.*

*Qadınsız çətindi həyatı sevmək*
*sevgisiz həyat da bir həyat deyil.*

Nəriman Həsənzadə yaradıcılığından söz açan müəlliflərin bir çoxu onun vətənpərvərlik ruhu aşılayan şeir və poemalarına çox az müraciət ediblər. Halbuki, onun bu mövzuda elə əsərləri var ki, indinin özündə də aktuallığını itirməyib. Onun "Zümrüd quşu" və "Nəriman" poemaları tarixi yaddaşımızın poeziyada əksi kimi çox təsirli əsərlərdir. Ümumiyyətlə, TARİX N.Həsənzadənin yaradıcılığından qırmızı bir xətt kimi keçir. Bu xəttin bir ucu XX əsr Azərbaycan həqiqətləri, bir ucu Cənub həsrəti, bir ucu Nizamidən üzü bəri bizim böyük sənətkarların faciəli taleləri, bir ucu da dünyanın indisindən antik dövrünə qədər keçdiyi yoldur. O, həmişə poeziyasında qəhrəmanlığı vəsf edib - Nuru Paşadan poema yazıb, Qaçaq Kərəmi tərənnüm edib. Həmkarım Nizami Cəfərovun bu fikriylə tam şərikəm ki: "Nəriman Həsənzadənin bütün yaradıcılığının baş qəhrəmanı Tarixdir".

Altmışıncı illərdə yazdığı "Nikolay" şeirini yada salaq:

*Heykəli önündə donub qaldım mən,*
*Hirsimdən beynimə sıçradı qanım.*
*Asıldı daş kimi iki çiynimdən*
*İkiyə bölünmüş Azərbaycanım.*

N.Həsənzadə bir şeirində ("Qız qalası") yazır ki, Azərbaycan torpağında, ola bilməz dillər töksün, ya diz çöksün ata qızı qabağında, Öz qızına, balasına, doğma ciyərparasına "sevgilim ol", "arvadım ol" desin ata". Odur ki, bu əfsanə işğalçının söz yarasıdır, həqiqət deyil. Ümumiyyətlə, xalqın etnogenezisi, adət-ənənələri, milli xüsusiyyətləri, poeziyası və musiqisi, qəhrəmanlıq tarixi, eyni zamanda, faciəli dönümləri ilə bağlı nə varsa, şair onlara qarşı çox həssasdır. "Kərkük yaylığı" şeirində Füzuli yada düşür:

*Taleyin qürbətə düşüb güzarı,*
*ayrılıb yollarda duman, sis qalıb.*
*Burda bir heykəl var-yoxdu məzarı,*
*orda bir məzar var-heykəlsiz qalıb.*

Onun "Rəsul Həmzətova məktub" adlı kiçik bir poeması var. Bu poemada vaxtilə Dağıstanın 1 nömrəli şairi elan edilmiş Rəsul Həmzətovun İran səyahətindən söz açılır. Rəsul Həmzətov bu səyahətdən sonra "İran silsiləsi" şeirlərini çap etdirdi. Həmin silsilədə bir misrada belə Azərbaycanın adı çəkilmir. N.Həsənzadə də İranda yaşayan azərbaycanlıların acınacaqlı taleyini, onların tarixinin, dilinin, mədəniyyətinin saya alınmamasını, təhrif olunmasını R.Həmzətova xatırladır:

*Vaqifin şeirini bəyənmədilər,*
*xər dili!*
*Gör necə böhtan dedilər.*
*Burda Firdovsini çevirdik biz də,*
*o dildə oxuduq öz evimizdə.*
*Uşağa ad qoyduq: Firdovsi, Xəyyam,*
*Sabiri dandılar İranda müdam.*
*Anamın döşünü kəsdilər, şair,*
*oğulun başını kəsdilər, şair,*
*Dünya şairləri susdular, şair.*

**(ardı var)**